

# Mədəniyyətimizin tarixi günləri

**Mədəni hadisələrlə zəngin daha bir ay arxada qaldı. Nə qədər yaddaqalan tədbir keçirildi, layihə gerçəkləşdirildi. Onlardan ikisi son günlərə təsadüf etdi...**

## Əbədi qayıdış

**Respublikamızın şəhər və rayonlarında Azərbaycanın görkəmli söz ustası Rəsul Rzanın anadan olmasının 100 illiyi ilə bağlı rəngarəng tədbirlər həyata keçirilir. Onlardan biri də bu günlərdə şairin dünyaya göz açdığı Göyçayda baş tutdu.**

Tədbir iştirakçıları əvvəlcə ulu öndərin xatirəsini yad etdilər, onun abidəsi önünə tər çiçək dəstələri qoydular. Sonra ziyarətçilər Rəsul Rzanın evinə yol aldılar.

Rəsul Rzanın ev-muzeyinin açılış mərasimini Rayon İcra Hakimiyyəti başçısının müavini Rəxşəndə Rəcəbova açaraq tədbir iştirakçılarını salamladı, şairin həyat və yaradıcılığından danışdı: "Rəsul Rza üçün Vətən Göyçaydan başlayıb. Anası Məryəm xanımın şirin laylalarını bu evdə eşidib, 12 yaşında ilk şeirini o, bu evdə yazıb..."

Sonra rayon ziyalıları adından çıxış edən 7 saylı məktəbin direktoru Adil Məmmədov həyəcanlı, yaddaqalan, tarixi bir an yaşadıqlarını vurğuladı. "Bu gün Göyçayda yeni bir mədəniyyət ocağının, poeziya evinin açılışında iştirak edirik. Rəsul Rza 100 il əvvəl burada dünyaya gəldi, buradan sənət yoluna addımladı, poeziyası ilə oxucuların ürəyini fəth etdi və uzun illərdən sonra öz evinə qayıtdı. Bundan sonra Rəsul Rzanın doğulduğu ocaq ev-muzeyi, xatirə muzeyi, poeziya evi kimi fəaliyyət göstərəcək, bu müqəddəs ocaq Göyçay ziyalılarının ən çox üz tutduğu bir məkan olacaq".

Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Mənsur Məmmədov da Azərbaycan ədəbiyyatında, Azərbaycanın ictimai həyatında öz sözünü demiş həmyerliləri Rəsul Rzanın ev-muzeyinin açılışı münasibətilə tədbir iştirakçılarını təbrik etdi.

Rəsul Rza adına Ədəbiyyat Fondunun sədri, Xalq şairi Fikrət Qoca çıxış edərək bildirdi ki, böyük şairin adını daşıyan mükafat bu il sahiblərinə əlamətdar bir gündə çatdırılacaq. "Mükafatçıları - Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayevi, Göyçay RİH başçısı Mənsur Məmmədovu, heykəltəraş Azad Zeynalovu, "Azərbaycan" qəzetinin mədəniyyət şöbəsinin redaktoru Flora Xəlilzadəni, Rəsul Rzanın ev-muzeyinin direktoru Solmaz Həsənovanı və rejissor Əhliman Qafarovu bu münasibətlə ürəkdən təbrik edir, gərəkli fəaliyyətində onlara uğurlar diləyirəm!"

Mərasimdə çıxış edən Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev bildirdi ki, son illər Azərbaycan ümummilli liderimiz Heydər Əliyev siyasətinin yeni mərhələsini yaşayır: "Ulu öndər mədəniyyət sahəsinə xüsusi önəm verirdi. Bu ənənə bu gün daha geniş miqyasda həyata keçirilir. Şəhərlərin görkəmindən tutmuş yeni mədəniyyət ocaqlarının yaradılmasınadək böyük işlər görülür, incəsənət və mədəniyyət xadimlərinə diqqət və qayğı göstərilir..."

Nazir Rəsul Rzanın 100 illiyinin geniş şəkildə qeyd olunmasının əhəmiyyətindən söz açdı: "Azərbaycan poeziyasında Nizamidən, Xəqanidən tutmuş bugünə qədər yaşayıb-yaradan şairlərin sırasında Rəsul Rzanın özünəməxsus yeri vardır".

Çıxışının sonunda muzeyin yaradılmasında əməyi, əziyyəti olan hər kəsə təşəkkürünü bildirən Ə.Qarayev əminiklə bildirdi ki, bu ünvanda həyat davam edəcək, burada söz, poeziya, mənəvi ucalıq daima əziz tutulacaqdır.



Rəsul Rza ocağının davamçısı, Xalq yazıçısı Anar göyçaylıları, qonaqları salamlayaraq çoxdan gözlədikləri günün gəlib çatdığını bildirdi.

"14-15 yaşına kimi yaşadığı şəhərə Rəsul Rza indi əbədi qayıtdı", - deyən yazıçı Rəsul Rzanın 100 illik yubileyinin keçirilməsi ilə bağlı sərəncam verdiyinə görə ölkə başçısı İlham Əliyevə öz minnətdarlığını bildirdi.

O dedi ki, Rəsul Rzanın yubileyi münasibəti ilə AMEA-da, Azərbaycan Pedaqoji Universitetində, Mədəniyyət və İncəsənət Universitetində, M.F.Axundov adına Milli Kitabxanada, habelə Türkiyənin müxtəlif şəhərlərində silsilə tədbirlər keçirilib.

"Muzeyin ərsəyə gəlməsində göstərdiyi səylərə görə Mədəniyyət və Turizm naziri hörmətli Əbülfəs Qarayevə xüsusi təşəkkür edirəm. Mədəniyyət və Turizm Nazirliyinin bu işlə məşğul olan bütün əməkdaşlarına, Göyçay Rayon İcra Hakimiyyətinə, Mənsur Məmmədov başda olmaqla bu işdə zəhməti keçən bütün göyçaylılara təşəkkür edirəm. Muzeyin direktoru Solmaz xanıma minnətdarlığımı bildirirəm. Onun fəaliyyəti nəticəsində muzey nəfis şəkildə tərtib olunub. Bu gün Rəsul Rza mükafatı alanların hamısını təbrik edirəm".

Çıxışlardan sonra rəmzi qırmızı lent kəsildi. 100 il əvvəl Rəsul Rzanın dünyaya göz açdığı ev qonaqlarını musiqi sədaları ilə qarşıladı...

**Rəsul Rzanın sadə, bol xatirələrlə dolu olan ev-muzeyində 600-dən çox eksponat var. Dörd zaldan ibarət olan muzeydə şairin həyat və yaradıcılığını, ictimai-siyasi fəaliyyətini əks etdirən guşələrlə yanaşı, şairin həyat yoldaşı Nigar xanıma həsr olunmuş guşədə qiymətli xatirələr, izlər qorunub saxlanılır.**

